

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111 (23.523)

14 iyul 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

Dövlətimizin başçısı iclasda çıxış edərək deyib: Dünən günorta saatlarında Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədib. Birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbçilərimiz, eyni zamanda mülki şəxslər həlak olmuşdur. Dünən günorta saatlarında onların növbəti təxribatı nəticəsində bir neçə hərbçimiz həlak olmuşdur. Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbçilərimiz həlak olub və yaralanıb. Allah şəhidlərimizə rəhmət etsin, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Prezident İlham Əliyev düşmənə adekvat cavab verildiyini, hərbçilərimizin qisasının alındığını, bundan sonra da alınacağını, hərbçilərimizin, şəhidlərimizin qanının yerdə qalmayacağını bildirib. Vurğulayıb ki, beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik ki, onlar kimin bu hərbi təxribatı törətdiyini öz gözləri ilə görsünlər.

## Muxtar respublikada təbiətə qayğı göstərilir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ekoloji problemlərin həllinə qayğı ilə yanaşaraq demişdir: ***“Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda ölkəmizin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Neft-qaz tükənən sərvətlərdir... Ancaq təbiət, ətraf mühit – bu, daimi sərvətdir. Əsrlərboyu, minilliklərboyu təbiət olub, kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq”.***

Naxçıvan Muxtar Respublikasında təbiətin mühafizəsinə, yaşıllıq sahələrinin artırılmasına xüsusi diqqət və qayğı göstərilir. Muxtar respublikamızın bütün bölgələrində yaşıllaşdırma işləri geniş vüsət almışdır. Hər il yeni meyvə bağları, meşə zolaqları salınır, təbiətin zənginləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Havaların isti keçdiyi bu günlərdə isə meyvə bağlarına və yaşıllıq zolaqlarına aqrotexniki qaydada qulluq göstərmək, ağacları vaxtlı-vaxtında suvarmaq mühüm əhəmiyyət daşıyır.

İyulun 11-də muxtar respublikada iməciliklər keçirilmiş, yaşıllıq zolaqları və meyvə bağlarına aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığında terras üsulu ilə salınmış 15 hektarlıq meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər. Ötən illər ərzində meyvə bağında 9300 müxtəlif meyvə ağacları, eləcə də üzüm kolları əkilmiş, damcı üsulu ilə suvarma sistemi quraşdırılmışdır. Vaxtlı-vaxtında göstərilən aqrotexniki qulluğun nəticəsidir ki, artıq ağaclar məhsul verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda təhsil alan əcnəbi tələbələrə maddi yardım göstərilib





***İyulun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikada təhsil alan və dünyada yayılmış pandemiyaya görə ölkələrinə gedə bilməyən 94 əcnəbi tələbəyə maddi yardım verilmişdir. Naxçıvan Dövlət Universitetində bu münasibətlə tədbir keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov çıxış edərək demişdir ki, dünyada pandemiya elan olunan virusun Naxçıvan Muxtar Respublikasında yayılmasının qarşısının alınması üçün tədbirlər görülür. Bununla bağlı qabaqlayıcı tibbi-profilaktik və dezinfeksiya işləri aparılır. Görülən məqsədyönlü işlərin nəticəsidir ki, muxtar respublikamızda virusun yayılması minimum səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə ötən dövrdə muxtar respublikada təhsil alan və ölkələrinə gedə bilməyən tələbələrə ərzaq və Ramazan bayramı ilə əlaqədar iftar payları verilmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi əcnəbi tələbələrə maddi yardım da ayrılmışdır.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev bildirmişdir ki, muxtar respublikanın ali təhsil müəssisələri hər zaman Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, dərslərin tədrisi, imtahanların keçirilməsi üçün əlverişli şərait yaradılmışdır. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada təhsil almaq istəyən əcnəbi tələbələrin sayı ilbəil artır. Bütün ali təhsil müəssisələrinin tədris korpuslarında və tələbə yataqxanalarında dezinfeksiya işlərinin aparılması, eləcə də əcnəbi tələbələrin qayğı ilə əhatə olunması onlara pandemiya dövründə ərzaq payları ayrılması, lazımi köməkliklər edilməsi göstərilən diqqətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev qeyd etmişdir ki, muxtar respublikamızda gedən sürətli sosial-iqtisadi inkişaf əhalinin məşğulluğunun artırılması, yeni iş yerlərinin yaradılması, insanların rifah halının yüksəlməsi ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisində dünyada yayılan pandemiya ilə bağlı keçirilən müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında da müvafiq vəzifələr qoyulmuşdur. Ali Məclisin Sədri tərəfindən verilən tapşırıqların icrası ilə əlaqədar 540 tənha ahıla göstərilən xidmətin miqyası genişləndirilmiş, 1600-dən artıq aztəminatlı ailəyə ərzaq sovqatı təqdim olunmuş, 9 mindən artıq sakinə birdəfəlik maddi yardımlar edilmişdir.

Sonra muxtar respublikanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrə maddi yardımı almaq üçün elektron kartlar təqdim edilmişdir.

Türkiyəli tələbə Şehriban Sarıhan, Banqladeşdən olan tələbələr Uddin Nasir, Kharus Zaman və cənubi koreyalı tələbə Lee Jin göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişlər.

**“Şərq qapısı”**

# Xalqın taleyində dönüş günü — 1969-cu il 14 iyul

***Dünyada elə şəxsiyyətlər var ki, onların həyatından, taleyindən, fəaliyyətindən yazmaq üçün bütöv bir xalqın, ölkənin tarixini yazmaq lazım gəlir. Ümummilli liderimiz Heydər Əliyev məhz belə nadir şəxsiyyət, xoşbəxt insan idi. XX əsrin 30 ili Azərbaycan tarixi üçün Heydər Əliyev dövrü olmuşdur. Ulu öndər Azərbaycan milli tarixində özünəməxsus yer tutan elə dühadır ki, onun zəngin irsi hələ uzun müddət politoloqların, filosofların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində olacaqdır. O, Azərbaycan xalqının müstəqillik mübarizəsindəki misilsiz xidmətləri ilə hələ sağlığında canlı əfsanəyə çevrilmiş, bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdı. 1969-cu ildə ulu öndər Heydər Əliyev ölkəmizə rəhbər seçiləndə Azərbaycan ozamankı SSRİ-nin ən geridə qalmış respublikası idi. 1971-ci ildə isə Azərbaycan inkişafın sürətinə görə SSRİ-də ən qabaqcıl bir respublikaya çevrildi.***

Görkəmli dövlət xadimi ölkəmizə rəhbərliyinin birinci dövründə – 1969-1982-ci illərdə Azərbaycanı Sovetlər Birliyinin ən geridə qalmış aqrar respublikasından ən inkişaf etmiş sənaye-aqrar respublikasına çevirərək bugünkü müstəqilliyimizin təməlini qoymuşdur. O, Azərbaycanın xammal istehsalçısından müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevrilməsi üçün mühüm tədbirlər həyata keçirmişdir ki, həmin illərdə ölkəmizin müxtəlif regionlarında yaradılmış yeni müəssisələr bu gün də iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına əsaslı zəmin yaradır. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanmışdır. Dahi şəxsiyyət milləti, milli düşüncəni oyatmış, güclü iqtisadi potensial yaratmışdır. Ulu öndər Heydər Əliyev o dövrü belə xarakterizə edirdi: ***"Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".***

Qeyd etmək lazımdır ki, ulu öndərin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikamızda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdı. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 15 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdir. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi, gələcək müstəqil Azərbaycanın inkişafı istiqamətində atılan mühüm addımlar idi. 1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal etmiş, İkinci Dünya müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Bu məqamdan məharətlə istifadə edən ulu öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bununla yanaşı, 70-ci illərdə Bakıda, Naxçıvanda, Xankəndidə Gəncədə, Mingəçevirdə, Lənkəranda, bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycandakı fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki illərdə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

Ötən əsrin 70-80-ci illərində dahi şəxsiyyət tərəfindən atılan ən mühüm addımlardan biri də milli hərbçi kadrların hazırlanması sahəsində qəbul etdiyi tarixi qərarlar və bunun nəticəsi olaraq Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasıdır. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş Sovetlər Birliyində mövcud olan qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri idi. Vurğulamaq lazımdır ki, ümummilli liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

Azərbaycan xalqının böyük oğlu 1969-1982-ci illər müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadrların hazırlanmasında mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirmişdir. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Əgər 1969-cu ildə Azərbaycanda 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günü uzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılmış, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdır. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər. Buradan da göründüyü kimi, XX əsrin 70-80-ci illərində ulu öndərimizin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdır.

Ümummilli lider Heydər Əliyev milli kimliyimizi yaşadan ana dilimizin inkişafını da xüsusi diqqət mərkəzində saxlamış, Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət və milli özünüdərk gətirmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün SSRİ məkanında rus dili hakim və rəsmi dil idi. Xalqımızın böyük oğlu tarixdə misligörünməmiş böyük cəsarət, siyasi müdriklik nümayiş etdirmiş, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirmişdir. Dahi rəhbər yüksək səviyyəli digər yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazanmışdı. 1978-ci il aprel ayının 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə Konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: *"Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir"*. Həmin dövrdə belə bir addımın atılması böyük risk idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"1969-cu il iyulun 14-də hakimiyyətə gələn 46 yaşlı dövlət təhlükəsizlik orqanı generalı və güclü siyasi iradə sahibi olan möhtərəm Heydər Əliyev Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorumalı, heç bir əsas olmadan tarixi torpaqlarımızın Ermənistana güzəştə gedilməsinin qarşısını almalı, iqtisadiyyatı dirçəltməli, sosial ədalətsizliyi aradan qaldırmalı, bir sözlə, xalqı yaşatmalı idi. Bununla yanaşı, təhsil, mədəniyyət və sosial sahədə də öz həllini gözləyən ciddi problemlər yığılıb qalmışdı. Ulu öndərimizin Azərbaycanın naminə fəaliyyətinin bu mərhələsi qeyd olunan problemlərin qısa müddətdə aradan qaldırılmasına, dərin köklərə və qədim mədəniyyətə malik olan xalqın tarixi yaddaşının, torpağa sahiblik hissinin bərpasına, bununla birlikdə Azərbaycanın özünə qayıdışına hesablanmışdı".***

XX əsrin 70-ci illərində görülən məqsədyönlü işlər nəticəsində Naxçıvan Muxtar Respublikası da sürətlə inkişaf etməyə başlamışdır. Bu, bir faktdır ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olmuşdur. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmiş, aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə artmışdır. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Ulu öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına qarşılaşdıqları çətinliklərə müəyyən qədər sinə gərə bilmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmizin vətəndaş müharibəsinə, hərcmərcliyə, xaos və anarxiyaya sürükləndiyi zamanda ümummilli liderimiz növbəti dəfə canı qədər sevdiyi Azərbaycanı xilas etmiş, Naxçıvandan başlanan qurtuluş mübarizəsi Azərbaycanın əbədi müstəqilliyinə təminat vermişdir. 1990-1993-cü illərdə dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə səbəb olmaqla yanaşı, milli dövlətçiliyimizin qorunması və inkişaf etdirilməsi istiqamətində də mühüm tədbirlərin həyata keçirilməsi ilə tarixə yazılmışdır. Belə ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən 12-ci çağırış birinci sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanının da adı dəyişdirilmiş, muxtar respublikanın ictimai-siyasi həyatına yeni ab-hava gətirilmişdir.1993-cü ilin iyunda ölkəmiz milli dövlətçiliyimizin ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşəndə ulu öndər Heydər Əliyev yenidən xalqın təkidli tələbi ilə Bakıya qayıtmış və ali hakimiyyətə bu qayıdış xalqımızın ən yeni tarixinə Vətənimizin xilası kimi yazılmışdır.

Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur. Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan Azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi hərtərəfli inkişaf edən, dünyada söz sahibinə çevrilən müstəqil Azərbaycanın daha da güclənməsinə səbəb olmuşdur.

Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. 1969-cu ildən başlanan yolun 1993-cü ildən davamının işığında doğma Naxçıvanımız müasirliyə qovuşmuşdur. Sosial-iqtisadi inkişaf fonunda müasirləşən şəhərlər, kəndlər, yaradılan infrastruktur Naxçıvanı Azərbaycanın ən gözəl, həm də ən çox turistin üz tutduğu diyarına çevirmişdir. Bu gün muxtar respublikada sabitlik hökm sürür, sərhədlərimiz qorunur, torpaqlarımız etibarlı müdafiə olunur. Muxtar respublikada şəhərlə kənd arasındakı fərq aradan qaldırılmışdır. Buna səbəb yaradılan müasir yol infrastrukturu, yurd yerlərimizin abadlaşması, ən ucqar kəndlərimizdə belə, əhalinin müasir texnologiyalardan istifadə etməsi olmuşdur. Naxçıvanda məşğulluq təmin olunmuş, yeni xidmət və istehsal sahələrinin yaradılması iş yerlərinin açılmasına səbəb olmuş, məskunlaşma artmışdır. Muxtar respublikada dövlət gənclər siyasəti uğurla həyata keçirilir, gənc nəslin təhsil və tərbiyəsi qayğısına qalınır. Hər bir Naxçıvan gənci peşəkar mütəxəssis, ən əsası isə Vətənə və dövlətçiliyə bağlı əsl vətəndaş kimi yetişməkdədir.

***"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır!",*** *– deyən dövlətimizin başçısı cənab İlham Əliyev həyatının amalı Azərbaycançılıq, millət sevgisi, Vətəninin müstəqilliyi, vətəndaşların rifahı, ümumilikdə, xalqına xidmət olan dahi şəxsiyyət Heydər Əliyevin uğurlu siyasətinin, müqəddəs yolunun layiqli davamçısıdır. Məhz buna görə də Azərbaycan çox qısa zamanda dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yerini tutmuşdur.*

**"Şərq qapısı"**

## Dövlət-xalq-ordu birliyinin daha bir nümunəsi

# Yolumuz Naxçıvanın qeyrət qalası Sədərəyədir

***Qədim diyarımızın bu bölgəsinə gedən magistral yolun rahatlığı, yolboyu seyr etdiyim gözəl mənzərələr məni biranlıq keçmişə – mavi yanacağın, işığın olmadığı topun, tüfəngin, yollarda şütüyən hərbi, təcili tibbi yardım maşınlarının qulaqbatıran səsinin olduğu illərə götürür. O illərdən bu günə nə qədər gözəlləşib, dəyişib yurdumuz. Əvvəllər kəsilib oduncaq kimi istifadə olunan ağacların torpaqdan boylanan kötüklərini ürək yanğısı ilə seyr edirdik. İndi isə yolboyu uzanan yaşıllıqlara tamaşa etmək insana qürur verir. Bütün bu gözəllikləri seyr etdikcə düşünürsən ki, insan hər şeyə qadirdir. Yetər ki, vətəndaşı olduğu dövlətə sədaqəti, havasını udduğu, suyunu içdiyi, ömür sürdüyü Vətən deyilən torpağa məhəbbəti, doğma yurdunu cənnətə döndərmək kimi ali məqsədi, xoş niyyəti olsun. Bu düşüncələrin əhatəsində qədim Oğuz yurduna çatırıq.***



Vətənimizin hər qarış torpağı bizim üçün əzizdir. Ancaq Sədərəkdə olarkən bu duyğular daha da güclənir. Çünki işğalçı ölkə ilə sərhəddən cəmi bir neçə metrlik məsafədəki abadlığı, inkişafı görmək Vətənimizin məhz bu gözəl torpaqlardan başladığını düşünmək insana başqa bir qürur verir. Burada düşmənlə üz-üzə dayanan ordumuzun qüdrətini görəndə ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin ***"Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır"*** sözlərini xatırlayıram.

Ordunun qüdrəti və döyüş qabiliyyəti həm də onun sıralarında olan vətənpərvər döyüş ruhlu hərbçilərin olması ilə güclü texniki təminatla və ən əsası hərbçi ailələrinin qayğı ilə əhatə edilməsi ilə ölçülür. Bu baxımdan qürurla deyə bilərik ki, ötən illər ərzində qeyd olunan bütün bu məsələlər diqqətdə saxlanılıb, hərbçi ailələri daim qayğı ilə əhatə ediliblər. Reallıqdır ki, səngərdə olan hərbçi arxada qoyub gəldiyi ailəsindən nigaran qalmayanda daha da rahat olur, daha inamla xidmət edir. Bu şərəfli peşə sahiblərinin ailələri də bu çətin işdə onların yol yoldaşı olur, mənəvi dəstək göstərirlər.

Bu gün çox sevindirici haldır ki, qədim yurdumuza gələn və ya xidməti vəzifəsi ilə əlaqədar olaraq buradan Azərbaycanın başqa bölgələrinə gedən hər bir hərbçi ailəsi muxtar respublikamızda yaradılan şəraitdən, onlara və ailələrinə göstərilən dövlət qayğısından ağızdolusu danışırlar. Çünki, həqiqətən də, Naxçıvanda yerləşən ordu və birləşmələrdə əsgərlərin və zabit ailələrinin yaşaması, istirahəti üçün hər cür şərait yaradılıb. Onların mənzil-məişət şəraiti hər il daha da yaxşılaşdırılır. Xidməti vəzifələrini yerinə yetirən hərbçilərimizə yeni mənzillər verilir. Əsas diqqətçəkən məqam isə ondan ibarətdir ki, ötən əsrin 90-cı illərində dahi rəhbərin ətrafında sıx birləşərək ordumuzun yaradılmasında və onun yaşadılmasında var gücünü əsirgəməyən naxçıvanlılar bu gün də xalq-ordu birliyinin nümunəsini göstərirlər. O illərdə evlərində qalıb, səngərdə döyüşənlərə isti çörək, yemək bişirib göndərən, neçə xatirələrin, neçə arzuların yadigarı olan qızıllarını müdafiə fonduna bağışlayan anaların övladları bu gün də həmin ənənəni davam etdirirlər. Uzun illərdir ki, keçirilən iməciliklər nəticəsində bütün bu magistral yolların ətrafına salınan meyvə bağlarından idarə və müəssisələr tərəfindən toplanan məhsullar mütəmadi olaraq hərbi hissələrə təhvil verilir. Bununla bərabər, sıravi vətəndaşlar da öz alın tərləri ilə yetişdirdikləri bostan və tərəvəz məhsullarından tez-tez Vətənimizin keşikçilərinə sovqat aparırlar. Muxtar respublikada hərbi qulluqçuların xidməti şəraitinin müasirləşdirilməsi və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində uğurlu siyasət aparılır. Sevindirici haldır ki, muxtar respublikamızın hərbi qüdrətinin artırılmasına xidmət edən dövlət siyasətinə ayrı-ayrı şirkətlər də töhfə verməyə çalışırlar. 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində "NEQSOL Holdinq" şirkətlər qrupu tərəfindən Sədərək rayonundakı 7 mərtəbəli yeni yaşayış binasından hərbçi ailələrinə xidməti mənzillər hədiyyə edilməsi də bunun parlaq təzahürüdür.

Ötən günlərdə həmin evlərdə yaşayan hərbçi ailələri ilə həmsöhbət olduq. Qonağı olduğumuz ilk mənzilin sahibi, İmişli rayon sakini zabit Elvin Əliyev 16 ildir ki, ən yüksək dağ zirvəsindən düşmənə ən yaxın olan bölgələrə qədər qüsursuz xidmət keçib. Azərbaycanımızın ərazi bütövlüyünü qorumaq kimi şərəfli bir peşənin sahibi olduğundan qürur duyduğunu bildirən zabitin dedikləri:

– Ümummilli liderimiz Heydər Əliyev zabit peşəsini ən şərəfli peşə kimi qiymətləndirirdi. Bu gün ulu öndərimizin yolu ölkəmizdə, eləcə də muxtar respublikada uğurla davam etdirilir. Müasir və qüdrətli milli ordusu formalaşan ölkəmizin ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə böyük nailiyyətlər əldə edilib. Hərbçi ailələrinin rahat yaşayışı, problemlərinin həlli isə imkan verir ki, onlar nümunəvi hərbi xidmət göstərsinlər. Bütün bunlar isə ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası ilə yanaşı, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının da diqqət mərkəzində saxlanılması deməkdir.

Mən Naxçıvanın müxtəlif bölgələrində xidmət etmişəm. Bir neçə aydır ki, sərhəd bölgəsi olan Sədərək rayonunda xidmətimi davam etdirirəm. Burada da sakinlərin ordumuza olan sevgilərinin, hərbçilərə göstərdikləri hörmətin şahidi oldum. Bu məni sevindirir. Sevincimi daha da artıran digər məqam isə ailəm üçün belə gözəl bir mənzilin təqdim edilməsi oldu. Mən ailəm və bu gün burada olmayan digər zabitlər adından ailələrimizə bu cür şəraiti yaradan dövlətimizə minnətdarlığımı bildirirəm.

Müsahibimin söhbətimizə qoşulan həyat yoldaşı Günay deyir:

– "Hərbçi ailəsi olmaq"... Bu ifadə kimiləri üçün nə qədər sadə səslənsə belə, mənim üçün hər hərfində özü boyda böyük məna var. Çünki mən bu həyatı yaşayır, çətin olduğu qədər də şərəfli bir peşəni seçən bir insanın ömür-gün yoldaşı kimi hər gün ona mənəvi dəstəyimi əsirgəmir, hərbçi yoldaşı kimi şərəfli adı daşıyıram. Bu gün bu şərəfli adı daşıyan yüzlərlə Azərbaycan qadını var ki, onlar sərhəd, cəbhə dəmdən öz həyat yoldaşlarının arxasında dayanıb. Dövlətimizin qayğısı isə bizə qol-qanad verir. Mən minnətdarlıqla bildirmək istəyirəm ki, bu gün bizim iki övladımızla burada rahat yaşamağımız üçün hər cür şərait yaradılıb.

Növbəti evin xanımı da iki övlad anasıdır. Şərqiyyə Ağakərimova Qəbələ rayon sakinidir. On bir ildir, xidməti vəzifəsini yerinə yetirən həyat yoldaşına bu şərəfli yolda yoldaşlıq edir. Onunla söhbətimiz yeni mənzilin üzü səngərlərə baxan salonunda oldu:

– Harada olursan ol, istər şəhər mərkəzində, istər sərhəd bölgəsində insan yenə eyni həyəcanı keçirir. Yoldaşım bəzən saatlarla, bəzənsə günlərlə, həftələrlə evinə gələ bilməsə də, biz evimizdə gecələr rahat yatırıq. Çünki bilirik ki, sərhədlərimiz etibarlı şəkildə qorunur. Çoxmərtəbəli yaşayış binasında bizə təqdim edilən mənzil hər cür şəraitə, əşyalara malikdir. Qonşularımız – Sədərək sakinləri o qədər səmimi insanlardır ki, insan özünü ailəsinin, ata-anasının, əzizlərinin yanında hiss edir. Sədərək rayonunda uşaqlarımızın yaxşı təhsil almaları üçün hər cür şərait var. Səhiyyə xidməti də müasir səviyyədə qurulub. Bütün bunlar bizim sakit və firavan yaşamağımıza şərait yaradır.

Bakı şəhərindən olan Aysel Qarayevanın isə üç övladı var. Həyat yoldaşı 19 ildir, xidməti vəzifəsini yerinə yetirir. Onlar da xidməti mənzillə təmin olunublar. Ayselin dedikləri:

– Ucqar dağ kəndlərində hərbçilərə tikilən yeni evlər, insanların yaşayışı üçün yaradılan hərtərəfli şərait düşmənin bir addımlığında firavan yaşayışı təmin edib. Vətəni qoruyan sadiq, inamlı, hərbçi yoldaşı olmağı seçən qadın isə daim fövqəladə vəziyyətlərə hazır olmalıdır. Biz öz mənzillərimizin pəncərəsindən düşmən postlarını görürük. Amma qorxmuruq, çünki əsgərlərimiz torpaqlarımızı igidliklə qoruyur. Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlər daim diqqətdə saxlanılır. Bütün bunlar hər birimizdə qürur hissləri ilə bərabər, əminlik yaradır. Tarixboyu alınmaz qala olan Naxçıvanın etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Ordu bu gün də düşmənin qorxulu kabusuna çevrilib. Azərbaycan Ordusu öz gücünü təkcə düşmənə yox, bütün dünyaya göstərir. Mən və mənim kimi hərbçi ailələri, övladlarımız bundan qürur duyur.

Bu gün burada gördüklərimiz bunu deməyə əsas verir ki, ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət göstərilməklə yanaşı, zabit ailələrinin mənzil-məişət şəraiti də yaxşılaşdırılır, yeni yaşayış binaları tikilir, mövcud yaşayış binaları yenidən qurulur, qüsursuz xidmətini tamamlayan hərbi qulluqçulara mənzillər verilir. Ərazi bütövlüyünü qoruyan hərbçi ailələri üçün yaradılan şərait, zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, eyni zamanda dövlətinin öz ordusuna, onun zabitlərinə və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, Azərbaycanda mövcud olan dövlət-xalq-ordu birliyinin nəticəsidir.

**Ramiyyə ƏKBƏROVA**

---

*Taleyinə şəhidlik zirvəsi yazılan, doğulduğu torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir!" – deyib canından keçən Toğrul Məmmədovun əziz xatirəsinə.*

# Bir hünər nəğməsidir şəhid ömrü



Yenə həmin gün gəldi, yenə məzarın başında səninlə danışıram, şəhidim, sənə demək istədiyim sözləri misra-misra vərəqə köçürürəm. Məhz köçürürəm, nöqtəsinə, vergülünə toxunmadan, bir sözünü dəyişmədən, əzbər bildiyim bir şeir kimi...

Dörd il bundan öncə elə ilin bu günündə – 2016-cı il iyunun 14-də Naxçıvan Beynəlxalq Hava Limanı bir daha insan seli ilə təlatümə gəldi. Sonuncu dəfə belə insan selini Aprel döyüşlərindən 10 gün sonra görmüşdüm. Yurdundan min kilometrlərlə uzaqda "Candan öncə Vətəndir!" – deyib şəhidlik zirvəsinə ucalan iki igid oğlumuzun cənazəsi gələn günü. Bu gün də həmin mənzərə var idi. Üçrəngli bayrağımızla bəzənmişdi hər tərəf. Özün də uğruna canını qurban verdiyin üçrəngli bayrağa bükülüb qəhrəman kimi qayıdırdın. Əvvəllər öz elinə gələndə təkcə qardaşın qarşılayardı səni, indi isə bütün Naxçıvan camaatı çıxmışdı yollara. Hər kəsin, böyükdən-kiçiyə hamının gözlərində yaş olsa da, bu qürurlu gündə başımızı dik tutmağı, qəmdən sıyrılıb çıxmağı bacardıq. Şəhidlik qeyrət və hünər zirvəsidir. Hamımız bu müqəddəsliyə qovuşmağa hazırıq, – dedik. Elə buna görə də Şəhid məzarları nəsillərin əbədi ziyarətgahına çevrilir.

Dörd ildir, yoxsan artıq yaşasaydın, 12 gündən sonra 32 yaşın olacaqdı demirəm, çünki sən öz ölümünlə əbədiyyəti qazanmısan. Ölümsüzlüyün ilə bu yurdun ömrünə öz ömrünü calayanlardan biri olmusan.

Hər kəs bir ömrün sahibidir. Az-çox yaşamağından asılı olmayaraq, bir gün son gəlir. Şəhidlər isə adilikdən çox uzaqdırlar. Bu gün şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir. Şəhidim, bu gün sən bütün yüksəklərdən ucada dayanan bir zirvədəsən. Bu zirvəyə qalxmaq yalnız müqəddəs amallar uğrunda çarpışan, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlara nəsib olur. Bu yüksəkliyə ucalan insanlar ölmürlər, əksinə, ölümləri ilə bir əbədilik qazanırlar. İllər ötüb, qərinələr dolaşsa da, şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır.

Bu gün Toğrulla təkcə ailə üzvləri yox, bütün xalq qürur duyur. Şəhidin doğması, yadı olmaz axı. Kimliyindən asılı olmayaraq, hər bir şəhid Vətən övladlarının qəlbinə düşmüş bir qordur. Elə bir qor ki bu millət yaşadıqca o, işıq saçacaq xalqımızın yoluna, örnək olacaq gələcək nəsillərə…

Üçrəngli bayrağımız ucalıqdan enməsin deyə, canından keçən, Vətən oğlu, sənin və bütün şəhidlərimizin igidliyi milyonların qəlbində əbədi yaşayacaq...

**R. ƏKBƏROVA**

---

## Nazirliyin yeni internet saytı istifadəyə verilib

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin rəsmi internet saytı müasir proqram təminatı və tərtib olunmuş alqoritm əsasında yenidən hazırlanaraq istifadəyə verilib. Yenilənmiş saytın əsas məqsədi müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi, rabitə və internet xidmətləri sahəsində fəaliyyəti gücləndirmək, kütləvi informasiya vasitələri ilə əlaqələrin daha dinamik və operativ şəkildə qurulmasını təmin etməkdir.



*rabite.nmr.az* adı ilə fəaliyyət göstərən yeni sayt həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb, elektron xidmətlərin həcmi genişləndirilib və yeni modullar əlavə edilib.

Sayt 6 bölmə, 13 altbölmədən və 16 moduldan ibarətdir. Əsas səhifədə istifadəçilərin informasiya əldə etmələri üçün nazirliyin ünvanı, əlaqə telefonu, elektron poçt ünvanı və "Axtarış" bölməsi yerləşdirilmişdir. İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemi, elektron hökumət, elektron imza, IP televiziya, internet xidməti, elektron təhlükəsizlik və "Startap Naxçıvan" portalı haqqında məlumatlar slaydlar şəklində yerləşdirilib.

Yeni yaradılan portalda ilk dəfə olaraq "IP televiziya" bölməsində IP TV Texnologiyası haqqında faydalı məlumat verilib, muxtar respublikada yayımlanan IP televiziya kanallarının siyahısı yerləşdirilib.

Vətəndaşların nazirliyə elektron formada müraciət etmələri üçün "Elektron müraciət" bölməsi yaradılıb, "Xidmətlər" bölməsində nazirliyin göstərdiyi xidmətlərin bannerləri və onlar haqqında məlumatlar daxil edilib, "Aktual keçidlər" bölməsində isə nazirlik, komitə, idarə və təşkilatların, həmçinin muzeylərin internet saytlarına keçidlər slayd şəklində yerləşdirilib.

Saytın "Naxçıvan bu gün" adlı bölməsində muxtar respublikamızın inkişafını və turizm potensialını əks etdirən, eləcə də tarixi abidələrinin fotoşəkilləri slaydlarla göstərilib.

Yeni saytın texniki üstünlükləri internet istifadəçilərinin internet və rabitə xidmətlərindən daha operativ faydalanmasına öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***



# Badamlı qəsəbəsi inkişaf yollarında...

***Muxtar respublikamızda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar doğma diyarımızın iqtisadi qüdrətinin artmasına, regionların sürətli inkişafına, yaşayış məntəqələrinin abadlaşdırılmasına, vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşmasına səbəb olub. Həyata keçirilən islahatlar, sürətlə davam edən abadlıq-quruculuq işləri hər bir naxçıvanlının qəlbində fərəh və qürur hissləri oyadır. Çünki bu gün hər bir vətəndaş muxtar respublikada gedən inkişafın bəhrələrini gündəlik həyatında, maddi təminatının yüksəlməsində açıq-aydın hiss edir. Uğurlu inkişaf strategiyası, davamlı sabitlik nəticəsində qazanılan bütün nailiyyətlər isə muxtar respublikamızda şəhər və kəndlərin, qəsəbələrin yeniləşməsinə geniş imkanlar yaradıb.***

Abadlaşan, hər addımda müasirliyilə gözoxşayan, qəlbə fərəh bəxş edən ünvanlardan biri də Şahbuz rayonunun Badamlı qəsəbəsidir. Bu yaxınlarda qəsəbədə olarkən orada gördüklərim məni valeh etdi. Adıçəkilən ünvana kiminsə yolu düşsə, işgüzarlıq və fəallığın, heyrət doğuracaq inkişafın şahidi olar. Son vaxtlar bu bölgəmizə yeni həyat, yeni nəfəs bəxş olunub. İnsanlarda qurub-yaratmaq əzmi daha da artıb. Bu əzmi artıran isə, heç şübhəsiz, Şahbuzun inkişafına göstərilən diqqət və qayğıdır. Bu qayğının ən böyük ifadəsi qəsəbəyə yaraşıq verən kompleks quruculuq işləridir. Yaşayış məntəqəsində məktəb, qəsəbə və xidmət mərkəzləri tikilib. Mənzillər dayanıqlı təbii qaz, elektrik enerjisi və rabitə xidməti ilə təmin olunub. Bundan başqa, burada avtomobil yolu yenidən qurulub, yaşayış binaları təmir edilib.





Həmsöhbət olduğumuz müəllimlər şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri üçün hər cür şəraitin yaradıldığını söylədilər. Bildirdilər ki, muxtar respublikamızda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu istiqamətdə həyata keçirilən tədbirlər, ilk növbədə, xoşbəxt və firavan gələcəyimizə hesablanıb. Təhsilli, vətənpərvər gənc isə gələcəkdə həm ölkəsi, həm də cəmiyyət və ailəsi üçün yararlı olacaqdır. Biz müəllimlər yaradılan hərtərəfli şərait müqabilində gənclərin mükəmməl təhsil alması və əsl vətəndaş kimi yetişdirilməsi üçün əlimizdən gələni əsirgəmirik.

Qəsəbədə xidmət mərkəzinin tikilib istifadəyə verilməsi sakinlərin sevincini birə-beş artırıb. Əvvəllər bu qəsəbənin sakinləri alış-veriş etmək üçün rayon mərkəzinə və digər yerlərə üz tutmalı olurdular. Xidmət mərkəzinin istifadəyə verilməsi mövcud çətinlikləri aradan qaldırıb. Xidmət mərkəzinin qarşısında qəsəbə sakini Hüseyn Rəsulovla söhbətləşdik. Onun dedikləri: – Qəsəbədəki quruculuq işləri kənd sakinlərinə layiq olduqları səviyyədə yaşamaları üçün həyata keçirilən tədbirlər olmaqla yanaşı, muxtar respublikanın gündən-günə artan iqtisadi qüdrətinin göstəricisidir. Dünənki mağazamız hara, məktəbimiz hara, bu gün gördüklərimiz hara? Bütün bu yaradılanlar və xoşbəxt güzəranımız üçün dövlətimizə minnətdarıq.

Badamlı qəsəbəsində sakinlərin əsas məşğuliyyətlərinin bağçılıq, əkinçilik, maldarlıq və əsasən, quru meyvəçilik olduğunu öyrəndik. Burada sakinlər ailə təsərrüfatlarının yaradılmasına xüsusi maraq göstərirlər. Qəsəbə sakini Bahar Seyidova öz təsərrüfatında həm meyvəçilik, həm də tərəvəzçiliklə məşğul olur. Onun bağında mövsümə uyğun olan meyvələr var. Alma, armud, alça, fındıq, 18 cəviz və 64 badam ağacı əkib. Hər il də yaxşı məhsul götürür, bazar və yarmarkalara çıxarır. Bahar Seyidovanın dedikləri: – Lap kiçik yaşlarımdan ailəmizlə birlikdə torpaqla təmasda olmuşam. Beləcə, sonralar da ömrümü-günümü ata-babalarımızın savab iş saydığı bağ salıb, ağacların qayğısına qalmaq, bar-bəhər üçün min bir zəhmət çəkmək işinə həmişəlik bağlamışam. Bax, bağımda gördüyünüz anjola meyvəsinin şivini Türkiyə Respublikasından gətirib burada calaq etmişəm. Bazara çıxarıb yaxşı da gəlir götürürəm.

Qəsəbə sakinləri ilə etdiyim söhbətdən məlum oldu ki, əvvəlki yollar bərbad vəziyyətdə idi. Xüsusən də qış aylarında. Qəsəbə avtomobil yolunun yenidən qurulması sakinlərin bu problemlərinə son qoyub. Belə ki, 5,3 kilometrlik avtomobil yoluna yeni asfalt örtük salınıb, yolun kənarlarında 3090 metr məsafədə beton su kanalı çəkilib. Yol boyunca 53 su keçidi tikilib, 2 körpü əsaslı təmir olunub. Yolun tikintisi zamanı çay yatağında sahilbərkitmə işləri aparılıb, 2400 metrlik qəsəbədaxili yollara isə qum-çınqıl qatı verilib. Qəsəbə sakini Beytulla Baxşəliyevin söhbəti: – Sözün həqiqi mənasında, qürur hissi duyuram, ona görə ki, doğulub boya-başa çatdığım, ömürboyu yaşadığım bu qədim yurd yeri bu gün inkişafının ən yüksək mərhələsindədir. Bilirsinizmi, buna necə nail olunub? – Ulu öndərin yoluna ehtiram və sədaqət göstərməklə. Bu gün təkcə naxçıvanlılar deyil, bütün xalqımız görür ki, bu yolun alternativi yoxdur.

Turizm baxımından da Badamlının özünəməxsus xüsusiyyətləri vardır. Badamlıya birgünlük gələn turistlər belə, bütün gün ərzində Yemişandərə, Ordu bulağı, Fərəməz bulağında yaddaqalan, mənalı istirahət edə bilərlər.

Qəsəbə mineral suyuna görə də ad-san qazanıb. “Mineral suların təbii muzeyi” adlandırılan muxtar respublikada 200-dən artıq mineral su mənbəyi mövcuddur ki, onlardan biri də Badamlı qəsəbəsindədir. “Badamlı” mineral su yatağı Badamlı qəsəbəsinin cənub-qərbində, dəniz səviyyəsindən 1274 metr yüksəklikdə yerləşir. Yatağın suyu çoxdebitli 5, azdebitli 20 bulaqdan ibarətdir. “Badamlı” suyunun istehsal tarixinə qısa ekskursiya etdikdə aydın olur ki, 1945-47-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında ərazidə elmi-tədqiqat işləri aparılaraq burada mineral su yatağı olduğu aşkarlanıb, müxtəlif kimyəvi tərkibli mineral sular sırasında 5 nömrəli bulaqdan istifadə edilməsi məqsədəuyğun hesab olunub. Bu su təkcə Badamlı qəsəbəsini deyil, ümumilikdə, Azərbaycanı tanıdıb. Lakin ötən əsrin 90-cı illərindəki ağır günlər zavodun fəaliyyətinin dayanmasına səbəb olub. Müstəqillik illərində muxtar respublikamız blokada şəraitində yaşamasına baxmayaraq, uzun fasilədən sonra “Badamlı” suyunun da əvvəlki şöhrətini özünə qaytardı. 2004-cü ildə “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən özəlləşdirilən müəssisə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən fəaliyyətə başladı. 2009-cu il avqustun 3-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində istehsal sahəsi 3 min 600 kvadratmetr olan “Badamlı” Mineral Sular Zavodu istifadəyə verildi. Mineral suya tələbatın artması yeni müəssisənin qurulmasını zərurətə çevirdi və muxtar respublika rəhbərinin göstərişi ilə “İxrac ili”ndə illik istehsal gücü 150 milyon şərti butulkaya çatdırılan yeni zavod may ayının 22-də istifadəyə verildi. Zavodun açılışı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Badamlı mineral suyu 1947-ci ildən istehsal olunur. İlkin vaxtlar istehsal sadə formada aparılmış və mövcud su ehtiyatlarından tam istifadə olunmamışdır. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirilən tədbirlər çərçivəsində “Badamlı” mineral suyunun da istehsal həcmi artmış, yeni zavod qurulmuş və məhsulun 90 faizi ittifaq ölkələrinə göndərilmişdir. Qısa müddətdə “Badamlı” mineral suyuna böyük tələbat və rəğbət yaranmışdır. Lakin təəssüflə qeyd etməliyik ki, ötən əsrin 90-cı illərinin acı nəticələri digər sahələr kimi, “Badamlı” suyunun istehsalına da ciddi ziyan vurmuş, zavodun fəaliyyəti dayandırılmışdı. “Badamlı” mineral suyunun ikinci dəfə sənaye üsulu ilə istehsalına 2009-cu ildə başlanılmışdır. Həmin il Badamlı qəsəbəsindən Naxçıvan şəhərinə qədər su xətti çəkilmiş və yeni zavod istifadəyə verilmişdir. Xarici bazarda “Badamlı” suyuna tələbatın artması yeni zavodun tikilməsini zəruri etmişdir. Eyni zamanda mineral su ixracına sertifikat verən təşkilatların rəylərində də qeyd olunur ki, mineral sular mənbədən ən çox 3 kilometr məsafəyə daşınaraq istehsal olunmalıdır. Bütün bunlar əsas götürülərək iqtisadi dəyərləndirmə aparılmış və Badamlı qəsəbəsində yeni zavod tikilmişdir”.***

Zavodda istehsal, filtrasiya, kompressor bölmələri, xammal, hazır məhsul, ehtiyat hissə, nümunə məhsullarının saxlanılması anbarları və laboratoriya vardır. İstehsal bölməsində 3 sudoldurma xətti yaradılıb, Türkiyənin “Ektem” və Fransanın bu sahədə dünya üzrə məşhur “Sidel” şirkətlərinin ən müasir avadanlıqları quraşdırılıb. İkimərtəbəli inzibati binada işçilərin rahatlığı nəzərə alınaraq iş və texniki otaqlar istifadəyə verilib.

Adıçəkilən zavodun istifadəyə verilməsi daxili bazarın keyfiyyətli məhsullarla təmin olması ilə bərabər, həm də yeni iş yerlərinin yaradılmasına səbəb olub. Ali Məclis Sədrinin də dediyi kimi: ***“Yeni zavod yeni iş yerlərinin yaradılması, iş yerlərinin yaradılması isə ailələrin rahat yaşayışının təmin olunması deməkdir. Ona görə də kollektiv qurulan avadanlıqları qorumalı, suyun keyfiyyətli istehsal olunmasına və zavodun səmərəli fəaliyyətinə çalışmalı, mütəxəssis kimi formalaşmalıdır”.***

İxrac olunduğu ölkələr sırasında Rusiya Federasiyası, Qazaxıstan, İraq, Çin, Birləşmiş Ərəb Əmirlikləri və digərlərinin yer aldığı “Badamlı” mineral süfrə suyu beynəlxalq sərgilərdə böyük maraqla qarşılanır.

Qədim tarixi abidələri, turizm potensialı ilə seçilən Şahbuz rayonu bu gün inkişafının yeni mərhələsinə qədəm qoyub. Burada gedən quruculuq işləri ilə yaxından tanış olmaq üçün bir gün qısa bir müddətdir. Çünki bu qədim oğuz, türk yurdunda gedən inkişafı, sürətlə davam edən quruculuq proseslərini öyrənməyə nəinki bir gün, hətta həftələr yetməz. Rayonda olduğum müddətdə bir daha əmin oldum ki, inkişafın, tikilib-qurulanların arxasında muxtar respublikada qətiyyətlə aparılan quruculuq və inkişaf siyasəti durur. Elə bu andaca qəlbimdən bir kəlmə bunu demək keçir: qurub-yaradan əllər var olsun...

**Nuray ƏSGƏROVA**
***jurnalist***

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Naxçıvan Muxtar Respublikası üzrə 13 iyul 2020-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1028 | 1018 | 3001 | 29,5 |
| 2. | Şərur rayonu | 4865 | 3484 | 13024 | 37,4 |
| 3. | Babək rayonu | 11767 | 8556 | 27246 | 31,8 |
| 4. | Ordubad rayonu | 1804 | 1804 | 5135 | 28,5 |
| 5. | Culfa rayonu | 7589 | 5859 | 15324 | 26,2 |
| 6. | Kəngərli rayonu | 5906 | 5707 | 17014 | 29,8 |
| 7. | Şahbuz rayonu | 1563 | 328 | 926 | 28,2 |
| 8. | Sədərək rayonu | 2357 | 2357 | 8591 | 36,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **36879** | **29113** | **90261** | **31,0** |

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti əlavə (təkrar) ali təhsilin qaydalarına uyğun olaraq 2020-2021-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə (təkrar) ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

| № | İxtisasın şifri | İxtisasın adı | Təhsil müəssisəsinin təklif etdiyi yerlər | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əyani | Qiyabi |
| 1. | 050201 | Beynəlxalq münasibətlər | 15 | | 15 |
| 2. | 050206 | Hüquqşünaslıq | 65 | | 65 |
| 3. | 050214 | Tarix | 10 | | 10 |
| 4. | 050215 | Tərcümə (ingilis-Azərbaycan dilləri) | 10 | | 10 |
| 5. | 050405 | İqtisadiyyat | 25 | | 25 |
| 6. | 050409 | Mühasibat | 20 | | 20 |
| 7. | 050503 | Coğrafiya | 10 | | 10 |
| 8. | 050505 | Fizika | 10 | | 10 |
| 9. | 050511 | Riyaziyyat | 10 | | 10 |
| 10. | 050616 | İnformasiya texnologiyaları | 10 | | 10 |
| 11. | 050632 | Nəqliyyat mühəndisliyi | 10 | | 10 |
| **Cəmi:** | | | **195** | | **195** |

Əlavə (təkrar) ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***- rektorun adına ərizə;***

***- ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;***

***-3x4sm ölçüdə 6 ədəd fotoşəkil;***

***-sağlamlıq haqqında arayış;***

***-əmək kitabçasından çıxarış;***

***-şəxsiyyət vəsiqəsinin surəti.***

*Şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.*

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Sənədlər 2020-ci il iyul ayının 14-dən avqust ayının 1-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir ( əsas bina 1-ci mərtəbə, sənəd qəbulu komissiyası).

Əlavə (təkrar) ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə müvafiq əlavə (təkrar) ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər.Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan : Naxçıvan şəhəri,***
***Universitet şəhərciyi, əsas bina.***
***Telefon: 036-544-08-61 (Daxili 11-56)***

### İtmişdir

Əkbərov Qasım Əkbər oğlunun adına olan 0300097562 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Şıxmahmud kənd sakini Süleymanov Azad Kazım oğlunun adına olan JN-472A inventar nömrəli, 10311018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 518